DEYIMLƏR, ARALI SORALI SÖZLƏRI

ƏL YAZILARI

HƏSƏN BƏY HADİ

TƏBRİZ

1\5\2010

aldan girsə güc, daldan köçər düz.

aşın aşadıq, suyun içdik, yurdun qonaqladıq.

bağışlayın mənim türküm (türk danışığım) yaxşı deyil utanıram. - balam niyə utanırsan, bu ki moddadır.

çevrənməsə əsgi dəğirmən qarıtmazmış (qocalmazmış) qarı çevrən.

dillə düğünləyib, dişlə açma. (ağızla düğünlür, dişlə açır).

evlər şam çırağı, dağlar gəvən çırağı.

ilkin iş, sonra diş.

ivək (tələsən) sinək sütə düşdü. (tələssə sıçan, suçağ (tələ) qapar).

qısar qapı, əzər ayağ, uzun olsa quyruğun.

Sisə yelpik nə yapsın.

utamaq da var, ödəməkdə : almaqda (yeməkdə) var, verməkdə

aba altında ər yatar. (geyimlə kişi ölçülməz).

acı tərləyib, acı dinləyib. (həm yaman işləyib, həmdə yaman eşidib).

açılmadan göz yuman güllər.

ağçı (ovçu) ağına düşəli, keçən günlər sağrulur: ılqımlanır. xiyala gəlir.

ağır olsa bir bölük, parçalasan sürərsən. .

ağlamağı mənə qaldı, yağ yığmağı sənə.

ağzı gülə qapdın, örtə külün səpdin aldatıb üzə gülərək qapdın, yanığ külü üzə sərpdin.

axsamasın altında sənin at, yatacaq yer tapsan, at başıvı yat.

alğın (qonaq) köçər durmaz, yaxcı (yaman) keçər qalmaz.

alı deyirəm, dalı deyir. (**alı:** qabağa).

alın dartıb yağıya, düzlük yalnız dosluğa.

almam olsunda, belə qurtlusundan.

altın topraq qarışsa, topraq gülər adlanar. (**altın topraq**: ayağ altda olan topraq). {altın topraq qarışsa, topraq gülər **aldına**: üzüvə)}.

amsaxla (arvad bazla) qurumsaq birbirin tapar.

anası tavuq, yufa yapır, oğlu titik, qoşa qapır. (anası tovlaq (tavlaq) yufa yapar, oğlu titik qoşa qapar). anası tovlayıb (tavraq. aldadıb, astaca ustaca. çalaqlıqla) (komaşı) incə yapır, oğlu sivik zirəkliklə qoşa qoşa (cüt cüt) qapır. (qarşı qarşıya zirəklik edmən iki kişi doğuda (haqda) deyilir).

anasın yeyər balasın udar (bilməcə). (toyuğ. yumurta**).**

anlamayanıca, duysan bir, duymasanda bir.

aradan söz çıxmaq söz, değiş, çəliş, ixtilaf düşmək.

aralıq atı, kor fatı, çevir tatı vur tatı.

arat durat (təftiş), atar tutarsız olmaz.

arxasından (götündən) çıxartmaq.

armanlar (ideallar) əl çatmaz ulduzlar kimidirlər, yalnız qaranlıqda yol açar.

arslanın ölüsündən, siçanın dirisi (siçanın dirisindən yeğdir).

artıq yükdən, qatı qayğıdan, çiğnin dalıb, bel büküləndə sən.

arvadı saxlar əri, pendiri saxlar dəri.

aş aşıtan, daş daşıtan.

aşq başqa, baş başqa.

aşlı gəlsin daşlı gedsin (batsın).

at aşıramaz arpasız, kişi duramaz arxasız. {**duramaz arxasız**: sıyamaz (sındıramaz) arxasız}.

at çapa dey, it çapar. (itdə ata baxır çapır). (yaşam birbirinə baxıb yarışmaqdır, gedməkdir).

at satmaqla, ata alınmaz.

at yələsindən baxmaq**. (**göz ucu ilə baxmaq).

ata donu oğula yarasa, atasın diləməz.

ata tökəni bala yığar, ana tikəni bala cırar.

ay oğul bu "**qadın"** ki yox, **"qardun"** dur.

balasıda var bəlasıda.

baştapıldı börkü yoxudu, börk tapıldı başı yoxudu.

bilgə aldında dilivi dart (saxla), usda aldında əlivi dart.

bilki din islam durur; saqqal değil, olsa könlün xoşdiləklərlə dolu, saqqal olsa olmasa tapdın yolu.

hər nə sansan kəndinə; san yoldaşa;

bizim çək çiğ çəkən yoxdur bu dünyadə. (**çək**: qədər). **(çiğ**. dərd. həsrət).

bizim ellər bizim ellər, yatılçağı üzüm yərlər. - bizim ellər böylə elər, alıb qoyar ertin yerlər.

boşluq təkcə bir ensədir (sahədir) ki, yalnız tikməklə (doldurmaqla) pozmaq olar.

böyük acılar ürəkdə qalır (böyük acılar dilsiz olur, kiçik acılar deyingən) (onları sözlə görsətmək olamaz).

bulut gələr boranilə, hər nəsnədə oranilə (ölçüsüynən).

bükük bellu analar, qatıq yaşlı qarılar (ağır yaşlı qocalar).

çapıq çapan tez çatmaz, erkən yatan, tez qalxmaz, hardan gələn, hər dən gələn, min fırlayar, bir düşər.

çevrəyə yağışıq (çalışıq. düşmənyana), özünə yaxışıq.

çox olub çöp olmaqdansa, az olubda yas (yaxşı) olsun.

çox şey sınanar, biri durar (dözər), biri sınar olur.

dağı daşı yel pozrar, dos arasın söz pozrar.

dalaş dartış sabanda (şuxumda).

dəvəni görməyən, düğməni görməz, dirəyi görməyən, iğnəni nə görür.

dəyirsə çapır, dəğməsə atır.

dil yarası diş yarasından ağır olur.

doğru olduğunu savunmaq veya öylə görünmək.

dünyada hər türlü cismin adı var, hər bir adun gizlənu bir dadı var.

ertə duran, ertə evlənən, soxuranmadı. **(soxuranmaq.** peşmanlamaq).

ertə qalxan kişi yolu qıssa, günü uzun tapar.

eşək zəfran çi başəd**. (çi başat: nə anlar).**

eşşəyin satıb palan almağ üçün.

evdəki bizov öküz olmaz (eşiyə çıxmalıdı) :

evənlərdə ayrılarmış.

evlənmədən dörd göz ol, evlikdən son (evləndinsə) tək göz.

evlənmənin təməli "güvənc" dir. (**güvənc**: itminan).

ədə hara gedirsiz, oturun toyuq pişirmişəm, oturun quyruğundan yeyərsiz.

əlin suya vurmazlıq**. (**bir iş yamazlıq).

əlindəkin yelə verdin, indi yelpin yellə. (indi aralığa düşüb yel yel, yelə veril). (yelə verən, yelə qalar).

ərdəmli kişi daşların başı, ərdəmsiz kişi başmaq asdarı.

əsilin tapması güc, saxlaması qolay.

geçi can hayında (vayında. qayında. dərdində), qəssab yağ izində (peşində. dalında).

gəlin çiçək, hər dediyi gerçək, qaynana ilan, hər dediyi yalan.

gəpi kəvləsən, gəp çıxar.

göy dəmir geri durmaz. (qara dəmir kəsib gedər. sözündə qara dəmir kimi dur).

göy girsin qızıl çıxsın. (**göy**: qara dəmir. göy dəmir). (ağ (qılınc) girsin, al qızıl çıxsın). (sözündən dönsən, bu köz (od) söksün gözün).

göydə bulut hörlənər (hörülüb gedmək) , yerdə itlər hürlənər.

göydən düşüb, gölə enmiş**. (**lap yerinə düşmüş nərsə).

göyə suvsa (su atmaq. tüpürmək), üzə düşər. (yoğun sıçanın, götü yırtıq).

göz görsə ürək coşar (qopar) , qulaq duysa ürək duyar.

gözüm düşdü ətivə, duva yazdım itivə, itin siki götüvə.

gözünün otun almaq. (qorxutmaq).

güc aldan girsə, düz ardan çıxar. (aldan: öndən). (ardan: geridən).

gücənsədə biləyin, qaçınsada diləyin, təlimsədə (çoxalsada) biləgin, dönər dərman (dəğirman) , bitməz suyu bu gölün.

gücü yetməyən, sına batar (yatar). (**sın**: qəbir). (gücü yetməyən, yerə batar).

gülməcə: - uçmaq böyük, duzaq mı?. - uçmaq. - nərdən bilədin. - çünki yer üzündə bəylərə görə yoxsul çox.

gülməcə: - üç yoldaşdan biri dedi, - mən peyğəmbərəm. - hardan bilək, mö'cüzən hanı. - bir iti qılınc verin. - neynirsən. - hammızın başın kəsib, yenidən sizi dirildəcəm.

gülməz dişi kişiyə, olsa dişi yerində, çıxmaz kişi eşiyə, işi (əşi) olsa evində.

gülsə kişi üzünğə, görklük üzün görüngül, yavlaq gizir dilivni, uyqu sözlər diləngil. **(yavlaq gizir dilivni**: kötü dilivi gizlət).

gülsə kişi, atma ona odlu külə, baxqıl ona gülügülü ağzın gülə.

gümüş başa çıxsa, altın ayağda qalır.(gümüş günə çıxsa, altın tündə qalır).{. özünə (içinə) , dəğərinə baxmıyaraq, gözə soxulan, başa çıxarılan hər bir nərsə, başqaların (çox dəğərlik olsa belə) geridə, kölgədə bıraxır}.

gümüş gündə, altın kölgədə.

gümüş günə vursa, altın ayağıyla gəlir.

günə baxsan göz qamar, araq içsən göz axar.

günlər gəlir, həfdə dolur, ay keçir, cəhrə durmur, ay calanır il keçir.

günün gələn, tünün gedər.

harda daşladıq (atdıq) , harda tapladıq (tapdıq).

hardadı könlü, ossun (olsun) xoş olsun, ağrısı bizə az olsun.

hey ! özünü bulan ac, ye bir tikə bulamac.

hər nə edsən başı tut yoxki daşi, yaxci düşün iş sonunu.

hirslənmə, qırışların çoxalar.

xanım erkəyin əşi, evin günəşi.

iğnə güdən, dəvədə usdar (üzlər. tuşlar, raslar).

ilçiyə sözü yoxdur, görməyə gözü.

ilkin oyla, sonra söylə.

iş olacağına varır (olan olacaq).

işi başdan düşün, gerin (sonra) qıl işin.

işin dənəyən yağa batdı, gücü yetməyən yava batdı.

ivməkə qon (mənzil) alınmaz, aramaqla gözəl bulunmaz).

iyilik edib domuza at, oda bilməsə, buynuzu bilər. (**domuz**: qaban. dəqir bilməz).

kişi yaşadıqca qocalmaz, yaşamadıqca qocalır.

korun istəyi bir göz, iki olsa nə söz. (korun bir diləyi, iki göz).

könlünüz açıq, yoluza uğur**.**

köşşək olmadan köpənin (çulun) qayırmaq. (doğmadıq cocuğa don biçmək, beşik kəsmək). bir nərsənin gərəklərin öncədən yaraqlamaq, quraqlamaq (hazırlamaq).

qadın qadın olsa ərin dəğişər, əli yox.

qayqılı olan (dərdində olan) dəvəni görmüş.

qıl desən qımıldamır: belə qıl qədər də olsun təprəşmir.

qış yağmuru çiçək gətirir.

qızlar hamısı bir yuvanın quşudur.

qoxumuş ətə duz neylər, qırmızı üzə söz neylər.

qorxusu var qışından, işləməzsə yazından.

qovulsa yetişməz, boyun burmaz, uslayu desən əldə durmaz, qalxsa vurub yıxar, nə soğuq sayar, nə soğuq vurar. (bilməcə). (soğuq. boran).

qoymaruğ yatsın bu nehzət, nehzəti islamidür, bu cəmaət hammısı öz dininin qurbanidür.

- məhv eliyax bu şahi, bu şah, bu şah bu şahi.
- həqqimizdən keçmərik dünya əgər viran ola, bizdə qurani məcid, sizdə müsəlsəl tanq ola.

- biz şahi istəmirux zordu məyə, hammı hər zadı görür kordu məyə.

qoyunizm. (komunizm).

quşlar yuva yasar (yapar), su çitində, qum ilə. gülün günüz ötməsin, üzük (həsrək) ilə, mun (qussə) ilə.

qutlu yaşam, qonşu qağaş təpsədər (ciciklədər).

mə'mur mə'zun. əl mə'mur, əl mə'zun (etgili yetgili).

mənazilə nazil olan nazlılar.

milli ğurur, milsiz ğurur.

narıncov portağalova.

nazlı üzə qara gözə, qınru (hirsli) gözlə baxılmaz.

necə itik piçaq ərsə, öz sapın yonmaz.

nə başın otda olsun, nə odun başda. (nə otun başda).

nə çox dərin düşdük bataq, nə çox uca qalxdıq qalaq.

nə itin, nə ipin, nə odun, nə istisin istəmirəm.

olla ollayınan, yeddi qonçayılan, on yeddi mallayınan.

olsan, ollam

- əl olsan qolun ollam, ayağ olsan, qıçın ollam, yol olsan, döşəyin ollam, su olsan, çayın ollam, pul olsan, malın ollam, necə olsan, elə ollam, silik (dəsmal) olsan, tozun ollam, təkinsən, yarım ollam.

on iki dallı bir ağac, bir yanı qara bir yanı ağ. (bilməcə). (ay. il. gecə. gündüz.).

ot tütünsüz olmaz, iyid yazıqsız: gənc səhvsiz olmaz.

özzüm ölüm!.

poxuva görə keşir ək.

rəhmətliyin danışdığı boşudur, amma boşuna döğüldür.

sevda doğan yerdə, can çıxardı yerindən.

sevgi, özgürlüyün oğludur.

sevgiyə din deyilir.

sevişə söğüşə nə yol qapalı. (sevişdə söğüşdə hər yol yasal görünür).

sevmek çalac kimidir, bilməyən kötü dinlədir.

səqqəlli keçi var, səqqəlli eşşək görmədim.

sordum içi qalay (necədir), söylədi - üzü alay (bəzək), içi halay (boş).

söz gümüş, yır altın. (**yır**: mahnı. oxuma).

sözü aytanda o, sözündən (aytından) qaytan da o. (aytma (demə), aytdın (dedin) qaytma).

şeylərden büyük sonuçlar ortaya çıxar, hiçbir şeyi küçümseməmək gerekir.

şeytan ullah. - qeybət ullah. - gedmətullah. - qirmətullah.

təbriz demə təb'iz de.

uzun götür yorqanı, qısınmasın ayağın.

üç daşınma bir yanqınca yandırır (xərc götürür).

üzün qarma (eşmə), özün ara. {(üzün görmə, ərdəm dilə). (donun görmə, yordam (əxlaq) dilə). (donun görmə , işin gör. (dona baxma, işə bax)}.

yanına kuşu kondurmaz

yaşını gizlətməyən qadın ya gənc olduğuna güvənir, ya qoca olduğundan qorxmur.

yedit dedit**. (**yedirdib sözün, savın, xəbərin al, çıxart).